Əliyevlər ailə rejimi silahlı qiyam nəticəsində hakimiyyətə gəldikdən sonra demokratik dəyər daşıyıcılarına qarşı başlanmış repressiya dalğası son illərdə, xüsusilə, 2023-cü ildə daha da şiddətlənmişdir. 23 iyul 2023-cü ildə beynəlxalq səviyyədə tanınmış iqtisadçı alim, ADR Partiyasının sədri və London İqtisadiyyat və Siyasi Elmlər məktəbinin professoru Qubad İbadoğlunun şərlənərək həbs edilməsi ilə başlayan yeni məzmunlu repressiya dalğası kütləvi xarakter almaqdadır. Fundamental insan hüquq və azadlıqları, liberal iqtisadiyyat və digər demokratik prinsiplərin daşıyıcıları Qərbə qarşı absurd mübarizə fonunda şiddətli təqiblərə məruz qalıb.

Hazırda Azərbaycan həbsxanalarında 250 nəfərə yaxın rəsmi qeydə alınmış siyasi məhbusun olduğu bildirilir: o cümlədən, onların arasında son illərdə həbs olunmuş Polad Aslanov, Əvəz Zeynallı, Elnur Şükürov, İlham Aslanoğlu (Təhməzov), Osman Nərimanoğlu (Rzayev), Bəxtiyar Hacıyev, Nazim Bəydəmirli (Məmmədov), Niyaməddin Əhmədov, Rəşad Ramazanov, Pünhan Kərimli, Samir Aşurov, Qubad İbadoğlu, Afiyəddin Məmmədov, Ülvi Həsənli, Sevinc Vaqifqızı (Abbasova), Məhəmməd Kekalov, Əziz Orucov, Rza Səfərsoy, Nərgiz Absalamova və adı çəkilməyən çox sayda tanınmış siyasi, ictimai və mətbuat xadimləri də var. AXCP-nin 10-dan çox fəalı hazırda siyasi həbs həyatı yaşamaqdadır. Hətta təzyiq tədbiri kimi Müsavat Partiyasının Başqanı Arif Hacılının oğlu Orxan Hacılı da qondarma ittihamla həbs edilmişdir.

Dünən – 02.12.2023-cü il tarixdə isə ADR sədrinin müavini, Kanal 13-ün aparıcısı Rüfət Muradlı qondarma ittihamla şərlənərək həbs edilib.

ADR olaraq bəyan edirik ki:

1. Əliyevlər ailə rejiminin, xüsusilə, son aylarda repressiyaları kütləviləşdirməsi və şiddətləndirməsi xalq tərəfindən dayaqlarının itirilməsi fonunda hakimiyyətdən getmə qorxusu ilə bağlıdır və ona görə də, siyasi rejim hakimiyyət səlahiyyətlərini aşaraq, əlində olan hakimiyyət resurslarından sui-istifadə edərək ictimai rəy liderlərini və siyasi rəqiblərinisıradançıxarma kursunu götürüb ki, bu da dövləti cinayətdir.
2. Həmçinin kütləvi repressiya siyasəti cəmiyyətdə və cəmiyyətin passionar kəsimində kütləvi qorxu yaratmağa hesablanmışdır ki, bu da psixoloji dövlət terroru xarakterli cinayət hərəkətididir.
3. Ölkədə mədəniyyət və ziyalılıq simvolu kimi tanınan ADR sədrinin müavini, Kanal 13-ün aparıcısı Rüfət Muradlının "küçədə təkbaşına xuliqanlıq etmə, uca səslə ünvansız söyüş söymə və polisin qanuni tələbinə tabe olmama" kimi absurd, əsassız ittihamla şərlənməsi, ən azından, həyasızlığın pik həddi və ləyaqətsizlikdir.
4. Professor Qubad İbadoğlu başda olmaqla bütün siyasi məhbusların azad edilməsini qətiyyətlə tələb edirik.
5. ADR olaraq hakimiyyətin cinayət xarakterli repressiya siyasətinə qətiyyətlə və təkidlə etirazımızı bildirir, bu repressiyaların durdurulmasını qətiyyətlə tələb edir və əliyevlər ailə rejimini konstitusion normalara hörmətlə yanaşmağa dəvət edirik.

03.12.2023.